# Əxlaq fəlsəfəsi varisliyin və yeniliyin vəhdəti kimi

**Vahid Ömərov**
*AMEA-nın Qafqazşünaslıq İnstitutunun*
*Gürcüstanşünaslıq şöbəsinin müdiri, fəlsəfə üzrə*
*fəlsəfə doktoru,*
*fəlsəfə İnstitutunun doktorantı*

**Rəyçilər:** f.ü.e.d., prof.A.X. Mustafayev,
f.ü.e.d., prof. S.Y. Hüseynov

**Açar sözlər:** əxlaq fəlsəfəsi, ənənəvilik, yenilik, innovasiya, postmodernizm, millətçilik, kosmopolitizm, müasirlik, ümumbəşərilik, avropalaşma

**Ключевые слова:** философия этики, традиционность, новшество, инновации, постмодернизм, национализм, космополитизм, модернизм, универсализм, европеизация

**Key words:** philosophy of ethics, traditionalism, innovation, innovation, postmodernism, nationalism, cosmopolitanism, modernism, universalism, europeanization

Dünyanın bir çox ölkələri bir neçə əsrdir ki, modernləşmə sayəsində siyasi-iqtisadi, ideoloji, mədəni-mənəvi xüsusiyyətlərilə xarakterik olan Qərb tipli cəmiyyət yaratmağa cəhd edirlər. Postmodernizm ənənəvi cəmiyyətlərin yeniləşməsi, yenidən qurulmasını elan edib.

XX əsrin sonlarında və XXI əsrin əvvəllərində bəşəriyyətin dünya mədəni inteqrasiya prosesinə daxil olması prosesi gedir. Bir tərəfdən qloballaşmanın təsiri altında ənənəvi mədəniyyətlərin yox olması, mədəni-əxlaqi uniformizmi, (yekcinsləşməsi), digər tərəfdən mədəniyyətlərin qarşılıqlı zənginləşməsi yad dəyərlərin əxz olunması, polimədəniyyətliliyə keçidə cəhd baş verir. Bu gün bir qütblü sistemdən çox qütblər sistemə keçid dövründə ənənəvi dəyərlərin müxtəlifliyi və müasir inreormasiya texnologiyaların qarşılıqlı münasibətləri əsas rol oynayır. Dünyanın yeni qlobal məkanında paralel və kəsişən mədəni-əxlaqi dəyərlər yanaşı yaşaya bilər. Bu məsələnin həlli isə ənənəvi dəyərlərin və infomasiya texnologiyalarının qarşılıqlı münasibətlərini öyrənmədən bəşəriyyətin dünyagörüşündə baş verən yeniləşmə proseslərini öyrənmədən qeyri-mümkündür. Ənənəvi dəyərlər və qlobal mədəni-mənəvi inteqrasiya prosesində innovasiyaların qarşılıqlı əlaqəsi həlledici rol oynayır. Ənənəvi dəyərlər dil, din, tarixlə bağlı olan dəyərlərdir. İnformasiya-innovasiya texnologiyalara ənənəvi dəyərlərin dağıdıcısı kimi baxmaq olmaz. Cəmiyyətə informasiya-innovasiya texnologiyaları – kompüter, mobil əlaqə, peyk televiziyası, internetin tətbiqi ənənəvi cəmiyyətlərdə ciddi dəyişikliklərə gətirib çıxarır. Qazax mədəniyyətində ənənələr və innovasiyalar məsələsinə toxunan fəlsəfə elmləri doktoru, Əl-Fərabi adına Qazax Milli Universitetinin professoru Dursun Habitov və onunla həmmüəllif olanlar türk xalqlarının ənənəvi mədəniyyətdən danışarkən burada islamı onların identikliyinin nüvəsi kimi səciyyələndirdilər:

- İslam türk xalqlarının mədəniyyətlərinə sivilizasion təsir etdilər;
- İslam sayəsində IX-XII əsrlərdə türk xalqlarının mədəniyyətləri inkişaf etdi, bu dövrdə türk fəlsəfəsi dünya fəlsəfi prosesində lider mövqelərdən birini tutdu.
- Türk xalqlarının Rusiya və Çin tərəfindən müstəmləkələşdiyi şəraitdə islam bu imperiyaların assimilyasiya siyasətinə qarşı durdu və etnoqoruyucu funksiyanı yerinə yetirdi;
- Ərəbdilli fəlsəfə vasitəsilə türk xalqları antik mədəni irslə tanış oldular [2].

Bütövlükdə Azərbaycan mədəniyyətində, o cümlədən əxlaq fəlsəfəsinin unikallığı ənənəviliklə innovasiyalara meyilliliyin, açıqlığın, tolerantlığın azadlıqsevərliyin və nikbinliyin üzvü vəhdət təşkil etmişdir. Milli əxlaq fəlsəfəsi dialoq mədəniyyətinə əsaslanır. Azərbaycan əxlaq fəlsəfəsinin ənənəvi dəyərləri aşağıdakılardır:

- zəka (həqiqət), estetika (gözəllik) və etikanın (xeyirxahlıq) sinxronizmi;
- şərəf və vicdanın əxlaq haqqında təlimin əsası kimi anlaşılması;
- mənəvi və insani keyfiyyətlərin üst-üstə düşməsi;
- qadınlara ehtiram, qocalara və uşaqlara hörmət;
- bəşəri və milli həmrəylik;
- inkişaf etmiş qonaqpərvərlik institutu [2].

Azərbaycan əxlaq fəlsəfəsi islam, pravoslav, Şərq və Qərb ənənəvi və müasir dəyərlərin vəhdətindən ibarətdir. Bu əxlaqi dəyərlər Azərbaycan milli-mənəvi dəyərlərinə təsir etdiyi kimi o, özü də bu dəyərlərə əsaslı təsir göstərir. Milli əxlaq fəlsəfəsi millətçilik və kosmopolitizm kimi ifratçılıqdan uzaqdır. Millətçilik milli xüsusiyyətlərin müstəsnalığı olduğu kimi kosmopolitizm milli xüsusiyyətlərin qurban verilməsidir. Əxlaq fəlsəfəsi milli və ümumbəşəri dəyərlərin vəhdətindən ibarətdir. Millilik ənənəviliklə müasirlik, ümumbəşərilik isə qərbləşmə, avropalaşma kimi, roman və german xalqlarının dəyərləri kimi səciyyələndirilir.

Əxlaq fəlsəfəsində innovasion təfəkkür və təcrübə ənənəvi dəyərləri nəzərə almalıdır. İ.İ.Qarkin yazır: «İnnovasion təfəkkür strategiyasında ənənələr sivilizasion inkişafın güclü ehtiyatı-resursu kimi çıxış edir» [3].

Azərbaycanın sivilizasion gələcəyini anlamaq, dərindən dərk etmək, onun əxlaq fəlsəfəsində ənənəviliyin və innovasiallığın mürəkkəb dialektik qarşılıqlı münasibətləri haqqında fəlsəfi diskurs kontekstində mümkündür. İntellektual diskussiyalar və tədqiqatlar çərçivəsində ənənəvi dəyərlərin innovasion texnologiyalara və təcrübəyə daxil olması mexanizminin aşkar olunması zərurətdir. Müasir fəlsəfi ədəbiyyat da dəyərlərin strukturunda ənənəvilik və innovasiyalılığın dialektikası kifayət qədər tədqiq olunmamasıdır. Çünki indiyədək «ənənəvi cəmiyyət» konsepti «industrial cəmiyyət» anlayışına antitez kimi meydana gəlmişdir. «Ənənəvi kontekstdən ayrılmış innovasiya fenomeni amorf və mücərrəd terminə çevrilir, daha çox publisistikada istifadə olunur və hələlik heç bir qnoseoloji məna kəsb etmir» [3].

Hər hansı sosial-mənəvi normaya çevrilməzsə, xalqın dəyər yönümündə əhəmiyyətli yer tutmasa cəmiyyətdə heç bir institusional innovasiyalar meydana gələ bilməz. Əgər ənənəvi mədəniyyət ona yad olan innovasiyaları – Qərb sosiallıq modelini, demokratiyanı, insan hüquqlarını, mənəviyyat formalarını qəbul etməsə bu onun məhv olmasına gətirib çıxara bilər, patriarxal xarakterli primitiv strukturları bərpa edər. Nəticədə bu identikliyin aradan qalxmasına, dəyər relyatizminin müxtəlif formalarına səbəb olar.

İctimai inkişafın innovasion modellərində iqtisadi deyil, mədəni-dəyər amili həlledici rol oynayır.

Azərbaycan cəmiyyətinin inkişafının innovasion modeli əsas nüvəsi ruhi-mənəvi dəyərlər olan ənənəvi mədəni dəyər qəlibinin imkan verdiyi qədər mümkündür.

Azərbaycan etnosunun ənənəvi dəyər sisteminin ontoloji əsası əxlaqi-mənəvi dəyərlərdir. Mənəvi hisslərin inkişafı, həyatın mənəvi əsası azərbaycanlıların mənəvi varlığının zəruri zəminidir. Akademik Ramiz Mehdiyev «Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair» məqaləsində göstərir ki, «Qarşıdakı mərhələdə qlobal elm, təhsil və informasiya məkanına inteqrasiya, modernləşmə və innovasiya kursunu həyata

keçirmək üçün yeni nəsil tədqiqatçıların, XXI əsrin kreativ elitasının formalaşmasına böyük zərurət yaranmışdır»[1].

«İnnovasiya» anlayışı ingilis sözü «innovation» sözündən olub yenilik, yeniləşmə mənasında işlənir. Yeniləşmə deyəndə yeni qayda, yeni adət, daha doğrusu hər hansı yeni hadisə başa düşülür. İnnovasiya yeni keyfiyyət kəsb etmə mənasını verir.

V.İ.Çuyeşov müasir fəlsəfədə innovasiya və ənənələrin bir-birilərilə fenomenal deyil, essensial əks olduğunu göstərir. «Fenomenalizm nöqteyi-nəzərdən innovasiya və ənənəviliyin qarşılıqlı münasibətləri dərkolunmazdır. Əksinə, real həyatda innovasiya ənənəni dağıdır, məhv edir, ənənələr isə onu dağıtmağa çalışan innovasiyaları rədd etmək hesabına yaşayır və yenidən bərpa olunur. İnnovasiya ənənəviliyin aradan qaldırılmasının nəticəsi kimi özünü təsdiq edir» [6]

«Ənənə» termininin fəlsəfi mənası onunla müəyyənləşir ki, o indinin keçmişlə əlaqəsini səciyyələndirir, onlar arasında bağlılıqdır. Ənənələr mədəni dəyərlərin qorunub saxlanması və ötürülməsi mexanizmidir, sosiumun gələcək vəziyyətinin mənbələrindən biridir. Ənənəvi cəmiyyətlərdə, ənənə universal xarakter daşıyır. İnnovasiya isə tarixən XIX əsr antropoloqlarının əsərlərində tədqiq olunmuşdur. İnnovasiya yeni Avropa mədəniyyətinin Asiya və Afrika cəmiyyətlərinin həyati dayaqlarına tətbiqi nəticəsində, onların dağıdılması prosesini bildiyi üçün ifadə edirdilər. Ənənə və innovasiya bəşər mədəniyyətinin və tarixinin müxtəlif qatları ilə qarşılıqlı münasibətdə ola bilər. Ənənə ibtidai icma mədəniyyətində əmələ gəlib və inkişaf edib. Sivilizasiyanın inkişafı üçün isə daimi innovasion prosesinin mövcudluğu zəruridir. Patriarxal cəmiyyətdə dini sistemlər təşəkkül tapıb.

«Ənənə» və «innovasiya» terminləri yalnız müasir cəmiyyətin kommunikativ təbiəti və qloballaşması haqqında diskurs konteksində işlənə bilər. Evristik (nəzəri tədqiqatın məntiqi və metodik üsulları sistemi) perspektivdə edilməsi diskursiv (formal məntiq nəticələri əsaslanma K.Apelin) etikanın əsaslandırılması perspekti buna imkan yaradır. «Ənənələr və innovasiya haqqında diskussiyalarda cəmiyyətin mənəvi əsaslarının dərk olunmasına yeni yanaşmalar yaranır» [4]. İ.İ.Tarkan göstərir ki, innovasion texnologiyalar – xüsusi biotexnologiya müasir etik diskursa cəmiyyətin mədəni əsaslarının möhkəmliyinin qarantı kimi ənənələri daxil etməyi tələb edir. Müəllifin fikrincə ənənələr sosial sistemlərin böhranı şəraitində məsuliyyət etikasını formalaşdırır.

Qloballaşma şəraitində sosial sistemlər arasında baş verən informasiya mübadiləsi sisteminin diferensiyası, inteqrasiyası və qarşılıqlı zənginləşməsinə gətirib çıxarır. Bəzən innovasion yeniləşmə bayrağı altında mədəni idenikliyin baza əsaslarına – dilə, dinə, tarixə – mədəni müdaxilə münaqişəyə səbəb olur. İnnovasion texnologiyalara mədəniyyətin və identikliyin dağıdıcısı kimi baxmaq olmaz. Müasir cəmiyyət innovasion texnologiya vasitəsilə öz simasını dəyişir və texniki – texnoloji həyat tərzilə postindustrial cəmiyyətlə səciyyələnir. Ənənəvi dəyərlər innovasison çağırışlara müxtəlif cür təsir edir. Müasir qloballaşma şəraitində ənənələrə və innovasiyalara antitez kimi baxmaq olmaz. Çünki hər hansı sosial sistem qlobal inkişaf edən şəraitində ənənələr «yeni» ilə «köhnənin» dialoqunun iştirakçısı prosesinə çevrilir.

Əxlaq fəlsəfəsi varisliyin və yeniliyin vəhdəti kimi çıxış edir, özündə ənənəvi və innovasion qatları əks etdirir. Bir tərəfdən burada əcdadlar tərəfindən yaradılmış və sonrakı nəsillər tərəfindən qorunub saxlanmış ənənəvi dəyərlər, digər tərəfdən ənənəvi dəyərlərin zamanın ruhuna uyğun dəyişdirilməsi özünü göstərir. Xalqın əxlaq fəlsəfəsində köhnə və yeninin, özününkü və əldə olunmuşunun qarşılıqlı təsiri bir neçə yolla həyata keçirilir: «bir mədəniyyət elementlərinin digərinə sadə nüfuz etməsi, ənənəvi norma və adətlərə uyğun

olaraq əldə edilmişlərdən istifadə və onların sintezi» [4].

V.A.Fedotov özünün «Etnosun mənəvi ənənələri sosiomədəni hadisə kimi: türkdilli xalqların şifahi-poetik yaradıcılığı materialları əsasında» adlı doktorluq dissertasiyasında daha çox mənəvi ənənələrin etnosun tarixi yaddaş forması kimi səciyyələndirilmiş, ondakı varislik, millilik və beynəlmiləllik məsələlərinə toxunmuş, etnosun mənəvi ənənələrinin qorunub saxlanmasının sosial-psixoloji səviyyəsini, ideal insan, vətənpərvərlik, əməksevərlik, humanizm, düzgünlük, dostluq və qonaqpərvərlik ənənələrini tədqiqata cəlb etmişdir.

A.S.Timoşuk «Ənənəvi mədəniyyət: mahiyyəti və mövcudluğu» mövzusunda fəlsəfə üzrə elmlər dokdorluğu dissertasiyası (2007) müdafiə etmişdir. Müəllif burada ənənəvi mədəniyyətdə məkan və insan, onun dəyər səviyyəsi: aksioloji modallığı, hüquqi münasibətləri, epistomologiyası, rutual, fəlsəfi, estetik normativləri, ənənəvi mədəniyyətdə sosial yaddaş (etnososial) və identiklik, sarkallıq, bu mədəniyyətdə müxtəliflik və vəhdətin dialektikası, Hind-Avropa ənənəvi mədəniyyətində slavyanların yeri, müasir dünyada ənənəvi mədəniyyətin statusu, postmodernizm və neotradisionalizm, ənənəvi mədəniyyət və innovasiyanın qarşılıqlı münasibətləri məsələlərini şərh etmişdir.

Elmi ədəbiyyatda innovasiya dar mənada iqtisadi, texniki, texnoloji və sosioloji aspektlərdən öyrənilib. Qərbdə 60-cı illərində futurologiya – gələcək haqqında elm geniş yayılmışdır. Bu elm elmi-texniki tərəqqi və elmi-texniki inqilabın ehtimal olunan məqsədli nəticələrini sistemli öyrənilirdi. T.F.Stolyarova 2009-cu ildə müdafiə etdiyi «İnnovasiya sosial fenomen kimi» namizədlik dissertasiyasında yazır ki, bu gün «elmi-texniki tərəqqi» və «elmi-texniki inqilab» anlayışları «İnnovasiya» anlayışı ilə əvəz olunub.

Rusiyada, eləcə də Azərbaycanda innovasion, eləcə də informasiya texnologiyasının tədqiqinə maraq XX əsrin 90-cı illərindən yaranmışdır.

İnnovasion – informasiya texnologiyaları – İnternet, mobil jurnaliktika, sosial şəbəkələr əxlaqın yeni dəyər-dünyagörüşü əsaslarını yaratdı.

XX əsrin 40-cı illərində N.Viner HİT-nin cəmiyyətə tətbiqinin yeni dəyişikliklərə, insan həyatının bütün sahələrinə təsir edəcəyini, yeni cəmiyyətin dəyərlər sisteminin dərk olunmasını təsdiq edirdi. Viner öz əsərlərində informasiya ternologiyalarının insanın əsas dəyərlərinə onun həyatına, sağlamlığına, xoşbəxtliyinə, qabiliyyətinə, biliyinə, azadlığına, təhlükəsizliyinə və gələcəyinə təsir etdiyini göstərirdi. Vinerin informasion-etik maraqları və ideyaları təkcə «kompüter etikası» sahəsini deyil, «agent-etika», «internet etika», «nanotexnoloji etika», «jurnalistika və biomühəndislik etika»sı problemlərini də əhatə etdi. [7]

1995-ci ildə Kristina Qoroşak Kosikovski özünün «Kompüter inqilabı və qlobal etika» əsərində Vinerin informasiya etikasının gələcəyin etikası olması nəzəriyyəsini dəstəklədi. Lüçano Floridi özünün informasion- etik nəzəriyyəsində mövcud etikanın imkanlarının daha da genişləndirilməsini təklif edirdi.

Postindustrial, informasiya cəmiyyətində sosial əlaqələr və münasibətlər getdikcə mürəkkəbləşir, yeni kommunikasiya formaları olan internetin, şəbəkə əlaqəsinin, massmediasinin imkanları genişlənir. M.Kaetels «İnternet qalaktikası» kitabında İnterneti «azad qlobal komminikasiya vasitəsi» kimi səciyyələndirir.

Son vaxtlar İnternet qlobal şəbəkənin inkişafı ilə informasiya etikasının fundamental nəzəri bazasının yaradılmasına istiqamətlənmiş tədqiqatlar meydana çıxır.

Roma Papası XVI Benedikt (Jozef Ratsinqer) 2008-ci ilin mayında dünya birliyinə universal «İnfoetika» işlənib hazırlanması çağrışı ilə müraciət etmişdir.

Müasir dövrdə informasiya texnologiyaları sahəsində etik tədqiqatların aşağıdakı istiqamətləri göstərilir:

- Kompüter etikası;
- İnfoetika;
- Virtual etika;
- Şəbəkə etikası;
- Kibernetika;
- Netiket;
- İnternetin korporativ etikası.

Qərb təqiqatçılarından M.Haydeqqer, K.Yaspers, L.Memford, X.Solimovski, Elyulla müasir informasiya cəmiyyətinin aksioloji əsaslarının, texnikasının, fəlsəfəsinin klassik ənənələrini, onların ontoloji və etik aspektdən problemlərini aydınlaşdırmışlar,

2000-ci ildə Böyük Britaniyada «Makmillan» nəşriyyatında çapdan çıxmış «İnternet etikası» (Redaktoru Kennberidəki Kenta Univeristetinin professoru Dankan Lenqforddur) kitabında ABŞ-da XX əsrin 80-cı illərində formalaşmış komputer etikası nəzəriyyəsi nəzərdən keçirilmlşdir.

Şipunov O.K. «İnformasion etika: problemin qoyuluşu» məqaləsində informasiya etikasının yaranması və təkamülünündən bəhs etmişdir.

Akademik Ramiz Mehdiyev «Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair» məqaləsində göstərir ki, modernləşmə və innovasiya kursunu həyata keçirmək üçün Azərbaycan dövləti yeni nəsil tədqiqatçıları, XXI əsrin kreativ elitasının formalaşmasını milli prioritet kimi bəyan etmişdir. Belə bir şəraitdə:

- ənənəvi dəyərlərin yenidən nəzərdən keçirilməsi;
- Qərb mədəniyyətinə, Qərb fəlsəfəsinə, dinə və islami dəyərlərə yeni baxışın formalaşması zərurəti yaranır.
- Son illərdə Azərbaycanda, siyasətin fəlsəfəsi sahəsində müəyyən uğurlar əldə edilmişdir. Lakin bununla belə, milli fəlsəfi fikir tarixinin öyrənilməsinə, yeni mərhələdə qarşıya çıxan əxlaqi-mənəvi problemlərin araşdırılmasına ehtiyac yaranmışdır.
- Baş verən dəyişikliklər və zamanın çağırışları dalğasında formalaşan gənc nəslin dünyagörüşü, ənənəvi düşüncənin modernləşməsi, yeni təfəkkür tərzinin formalaşdırılması fəlsəfi tədqiqatların da qarşısına tamamilə yeni vəzifələr qoyur.
- İlk növbədə, ölkəmizdə mövcud ictimai gerçəkliyin elmi-nəzəri dəyərləndirilməsi problemi önə çıxır. Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikir tarixinin öyrənilməsi də öz aktuallığını saxlamaqdadır. Milli fəlsəfi irsin müasir dünya fəlsəfi fikir sistemində yeri, ideya potensialı və imkanları bir daha nəzərdən keçirilməlidir. Bu məqsədlə Şərq-Azərbaycan fəlsəfəsinin spesifikasını daha dəqiq müəyyənləşdirməklə yanaşı, onun müasir Qərb fəlsəfəsi ilə müqayisəsinə böyük ehtiyac yaranmışdır [1]

Beləliklə, əxlaq fəlsəfəsl ənənəvi dəyərlər və innovasion texnologiyaların qarşılıqlı münasibətləri kimi mürəkkəb mənəvi fenomenlərin metodologiyası əsasında nəzəri cəhətdən aşkar olunur və daha da dərindən öyrənilir.

**Məqalənin aktuallığı.** Ondadır ki, bir-birilə sıx bağlı olan ənənəvi dəyərlər və innovasion texnologiyaların qarşılışlı münasibətləri kimi mürəkkəb mənəvi fenomenlərin metodologiya əsasında nəzəri cəhətdən aşkar olunması və daha da dərindən öyrənilməsi zərurəti ortaya çıxır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondadır varislik prinsipi əsasında əxlaq fəlsəfəsində köhnə və yeninin ənənəvi dəyər və şəbəkə etikası arasında obyektiv zəruri əlaqə izlənmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən informasiya texnologiyası müəllimləri eləcə də tələbələr və magistrlər istifadə edə bilər.

## Ədəbiyyat

1. Mehdiyev R. Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair

2. Габитов Т. Казахская культура в контексте традиционных цивилизаций Азии //suberlenika.ru/article/n./kazaxskaya-kultura.

3. Гаркин И.И. Традиции и инновации в национальном философском дискурсе// kniqi.link./sovremennoye – obrazovaniye/ tradicii –I innovacii v nasionalnom filosofskom – diskurs / 25207. html.

4. Таркан И.И. Соотношение традиции и новации в условиях глобализации // http:

5. Чернявская Ю. Народная культура и национальные традиции // http://www.gumer.into.bibistek.Buks/Cubture/17.htm.

6. Чуешов В.И. Инновация и традиция грани взаимодействия //http://kniqi.link/sovremennaya.

7. Winer N. The Human Use of Human Beings: Cybernetiks and sosiilte Boston: Houghton Mifflin; 2[d] Ed.Re

**В. Омаров**

## Моральная философия как преемственность единству и обновлению

## Резюме

В статье сущность терминов «философия морали», «традиция», «инновация», взаимоотношения традиционных ценностей и информационных технологий исследуется с философско-этического аспекта. В дополнение к традиционным ценностям были проанализированы проблемы компьютерной этики, этики нанотехнологий, интернет-этики, этики биоинженерии, виртуальной этики, сетевой этики. Автор также рассмотрел модернизацию моральной философии Азербайджана и проблемы нового мышления.

**V. Omarov**

## Moral philosophy as a continuity of unity and renewal

## Summary

In the article, the essence of the terms “philosophy of morality”, “tradition”, “innovation”, the relationship of traditional values and information technology is examined from a philosophical and ethical aspect. In addition to traditional values, the problems of computer ethics, ethics of nanotechnology, Internet ethics, ethics of bioengineering, virtual ethics, and network ethics were analyzed. The author also examined the modernization of the moral philosophy of Azerbaijan and the problems of new thinking.

**Redaksiyaya daxil olub:** 05.11.2018